

## RƏHMAN BAYRAM

## Bir əsgər anası öpdü əlimdən

Əsgər yarasına məlhəm elədim,
Bir əsgər anası öpdü əlimdən.
O titrək əlləri mən öpməliydim,
Bir əsgər anası öpdü əlimdən.

Yudum göz yaşımla yaralarını,
Al-qana boyanmış dodaqlarını,
Sarıdım əlimlə ayaqlarını,
Bir əsgər anası öpdü əlimdən.

Bir anlıq kövrəlib gözünü sıxdı,
Ana ürəyini yandırıb yaxdı,
Ümidlə vurduğum iynəyə baxdı,
Bir əsgər anası öpdü əlimdən.

Gördüm bir başqası son nəfəsdədi,
Gözləri anada, o can üstədi,
Baxışları məndən həyat istədi,
Bir şəhid anası öpdü əlimdən.

Rəhmanam, bu dəhşət getsin, gəlməsin,
Amandı, bu millət şəhid verməsin,
Qoy zəfər bayrağın taxanlar desin,
Bir əsgər anası öpdü əlimdən,
Bir şəhid anası öpdü əlimdən.

## Dedim-dedi

Dedim: al yanaqda qara xal nədi?
Dedi: dağ döşündə lalədən soruş.
Dedim: dodaqlarda həsrət izi var,
Dedi: çəkdiyim ah-nalədən soruş.

Dedim: qaşın altda qara bulud nə?
Dedi: taleyimin siyah kölgəsi.
Dedim: yanaqlarda iz açıb şəbnəm,
Dedi: çiçək üstə jalədən soruş.

Dedim: boğuluram eşqin gölündə,
Dedi: şəhid istər eşq adlı Vətən.
Dedim: həsrətimin haçandır sonu?
Dedi: nakam olan taledən soruş.

## Təbiət

Qəribə qanunu var təbiətin,
Çiçəklər də sevir, insanlar kimi.
Könülsüz sığaldan, soyuq baxışdan,
Ləçəklər də küsür, insanlar kimi.

Bir gün çəmənzara düşdü güzarım,
Gördüm ki, çiçəklər min naz eyləyir,
Əyləşib tikanlı budağın üstdə,
Bülbül qızılgülə nəğmə söyləyir.

Yuyunur şəbnəmlə güllər, çiçəklər,
Al-əlvan geyinir yazın xətrinə.
Nalə çəkir bülbül, fəğan eyləyir,
Nərgiz tək sarışın qızın xətrinə.

Günəbaxan elə aşiq olub ki,
Gözünü günəşdən ayıra bilmir .
İlahi sevginin gücünə bax ki,
Günəş çıxmayanda gözləri gülmür.

Bir sevgi həsrəti, bir yar nisgili,
Lalənin köksünə qara xal çəkir.
İlk eşqindən kam almayan bənövşə,
Utanıb, sakitcə boynunu bükür.

Solub ləçəkləri xarı bülbülün,
Bir torpaq həsrəti var bənizində.
Deyir qayıdacaq gözəl Qarabağ,
Mən bir də açacam Cıdır düzündə.

Şəhid məzarını sevdiyi gündən,
Qərənfil hələ də danışmır, gülmür.
Görüşə tələsən çiçək görəndə,
Gözünün yaşını saxlaya bilmir.

Rəhmanam, təbiət heyranıyam mən,
Ana təbiətin bir anıyam mən,
Vətən torpağının qurbanıyam mən,
Əlif, Mübariz tək ərənlər kimi.

## Xocalı

Bilmirəm hayandan əsdi qara yel,
Bir gündə al-qana batdı Xocalı.
Azğınlar qoymadı daşı daş üstə,
Yağı səni oda atdı, Xocalı.

Dərdi dağlar əridən,
Evləri boş Xocalı.
Ağlamaqdan gözlərdə
Qurudu yaş Xocalı.

Sinəsi gülləbaran,
Yurdu viran Xocalı.
Çatan yox harayına,
Yarası qan Xocalı.

Kardı dünya, fəryad eləmir təsir,
Neçə qız-gəlinin düşübdü əsir.
Bacılar qardaşsız, körpələr yesir,
De, nədən taleyin yatdı, Xocalı?

Ahıyla sinələri,
Hey dağlayır Xocalı,
Torpağı yerlə yeksan
Qan ağlayır Xocalı.

Qoy hələ düşmənin qəddini əyim,
Döyüşüm o qədər, qalmasın heyim,
Qələbə günündə hayqırıb deyim,
Nəhayət, arzuya çatdı Xocalı.

## Dağlarda

*(Ətirli dağ çiçəyi "Qəşəng süsən" qırmızı kitaba düşub)*

Ay dağlar gözəli Qəşəng süsənim,
Görmürəm çoxdandı sizi dağlarda.
Köçkün taleyimiz düşüb üst-üstə,
Talanıb qalmısız cüzi dağlarda.

Həyatda beş dərddən üçü şairin,
Dağları sevməkdir suçu şairin.
Təbiət məftunu, ovçu şairin,
Hələ də qalıbdır izi dağlarda.

Bircə gün yaylaqda qalmaq istəsən,
Rəhmanla xəyala dalmaq istəsən,
Dərdləşib, həmsöhbət olmaq istəsən,
Axtarıb taparsan bizi dağlarda.

## Mənə "yeraz" demə

*(Əslini tanımayan bir alverçi mənə rişxəndlə "yeraz" dedi)*

Mənə "yeraz" demə, irəvanlıyam,
Bir az duyğuluyam, dəliqanlıyam,
Sənə çox yanıram, uşaqcanlıyam,
Qanmaza borcludur qananlar, lələ!

İrəvan, Kəlbəcər gözümdü mənim,
Qarabağ nəğməmdi, sözümdü mənim,
Zəngilan dərdimdi, özümdü mənim,
Yaşadır milləti yananlar, lələ!

O yerlərin məsumları ərdilər,
Dindirərsən, insan deyil, pirdilər,
Alınmadı Qarabağım, verdilər,
Sənintək əslini dananlar, lələ!

Bilirsən günaha batanlar kimdir?
Dostunu dar gündə atanlar kimdir?
Vicdanını pula satanlar kimdir?
Var-dövləti allah sananlar, lələ.

Rəhmanam, könlümə ümid nur saçır,
Nədənsə ədalət kasıbdan qaçır,
Millətin başına min oyun açır,
Bu xalqı rüşvətlə yonanlar, lələ!

## Ağladı

*(Kəlbəcər dərdini şeirlərində daşıyan Kəlbəcər şairlərinə ithaf edirəm)*

Dərdli misraların kövrəltdi məni,
Yaşardı gözlərim, dilim ağladı.
Didərgin soyumu saldın yadıma,
Obam ağı dedi, elim ağladı.

Sən təzə, mən də ki köhnə köçkünəm,
Dünyadan sən tək, mən də küskünəm.
Çoxmu qalacağıq gözü, köksü nəm?
Hıçqırdı aylarım, ilim ağladı.

Heç yaddan çıxarmı Şücaət, Bəhmən,
Ovutmayır Dəli Dağı duman, çən.





Həsrətdən kül oldu laləzar çəmən,
Gülşən nalə çəkdi, gülüm ağladı.

Rəhman Bayram salar səni yadına,
Bölər dərdlərini dostluq adına.
Gözündə qalanan hicran oduna,
Közərdi dərdlərim, külüm ağladı.

## Goranboy

Neçə döyüşlərdən çıxdın zəfərlə,
Damarda çağlayan qanım Goranboy.
Düşmənin köksünü yaxdın hünərlə,
Fəxarətim, adım, sanım Goranboy.

Qatır Məmməd üzüyünün qaşıdır,
Mərdlik tarixinin qan yaddaşıdır.
Bütün övladların vətən daşıdır,
Doğma yurdum, qəhrəmanım Goranboy.

Torpaqdan bir qarış vermədin yada,
Nəyin var, verərsən bir təmiz ada.
Ayağın torpaqda, əlin duada,
Müqəddəsim, din-imanım Goranboy.

Yolun haq yoludur, bu yoldan dönmə,
Sən Odlar Yurdusan, alış yan, sönmə.
Uca tut başını, zirvədən enmə,
Vüqarım, qüdrətim, şanım Goranboy.

Qonaq qarşılayan nurlu üzün var,
Halal çörəyin var, halal duzun var.
Uğrunda ölməyə oğlun, qızın var,
Qeyrətim, sultanım, xanım Goranboy.

Bəxş etdin cahana Rəhman Bayramı,
Qüvvət alır səndən təbi, ilhamı.
Borcludur bir cana həyatda hamı,
Qurban torpağına canım, Goranboy!

## Sənsən

Evdə müqəddəs varlığım,
Həyatda baş tacım sənsən.
Ömrümün, günümün dadı,
Şirinim sən, acım sənsən.

Dərdimə yanıb ağlayan,
Sevdamla coşub çağlayan,
Məni həyata bağlayan,
Eşqinə möhtacım sənsən.

Sona kimi mehribanım,
Zirvədə tülək tərlanım,
Düzlərdə ahum, ceyranım,
Gülşəndə turacım sənsən.

Hərdən küsüb inciyəndə,
Qayğılardan təntiyəndə,
Biri mənə can deyəndə,
Baxışı qıyqacım sənsən.

Sevginə bir ömür yetməz,
Rəhmanam, nisgilim bitməz,
Dava-dərman təsir etməz,
Dərdimə əlacım sənsən.

## Qurban olum

*(Faciəli sürətdə həlak olmuş qardaş oğlanlarının xatirəsinə)*

Əyilməyən qəddinizə,
Boyunuza qurban olum.
Çata bilmədik haraya,
Hayınıza qurban olum.

Əzizim bala dağı,
Çəkilməz bala dağı.
Ən qatı düşmənim də,
Görməsin bala dağı.

Gözmü dəydi nəslimizə?
Əcəl durdu qəsdimizə,
Nakam qalan sevginizə,
Toyunuza qurban olum.

Ata-ana ağacdır,
Bala onun budağı.
Dağ çəkildi anaya,
Yer götürməz bu dağı.

Siz həmişə oyaqdınız,
Niyə əbədi yatdınız?
Nəslimizə dayaqdınız,
Soyunuza qurban olum.

Əziziyəm bacılar,
Qardaşa baş tacılar,
İtirib qardaşını,
Nələr çəkir bacılar?!

Doğrudan da dünya yalan,
Gül ömrünüz oldu talan.
Tanrıdan yadigar qalan,
Payınıza qurban olum.